*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 84-92* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.84*

# Nəsil anlayışının ədəbiyyata təsiri və ədəbiyyatda əksi

**Ayna Əhmədli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: aynaehmedli2003@gmail.com

**Annotasiya.** Elm aləmində gündəmdə olan mövzulardan biri sosioloqların təqdim etdiyi insanların müxtəlif nəsillər üzrə təsnif edilməsidir. Karl Mannheimin fikrincə, sosial və mədəni dəyişikliklər böyük tarixi hadisələrə ehtiyac olmadan tədricən baş verə bilər, bununla da yaranmış mövcud sosial-ictimai şəraitdə dünyaya gələn insanlar bu mühitin təsiri ilə ortaq xüsusiyyətlərə malik yeni bir nəsli formalaşdırırlar [5]. Karl Mannheimin bu fikrinə əsaslanaraq deyə bilərik ki, incəsənətin müxtəlif sahələrində fəaliyyət göstərən sənətkarların fərdi xarakterik xüsusiyyətləri ilə bərabər, mənsub olduqları nəslin onlara qazandırdığı tipik xüsusiyyətlər də bu sənətkarların yaradıcılığına təsirsiz ötüşmür. Nəsillərin ən son təqdim olunan və bugünkü elm üçün aktual olan təsnifini William Strauss və Neil Howe vermişdir. William Strauss və Neil Howe tərəfindən təqdim edilən təsnif belədir: İtirilmiş nəsil, Böyük nəsil (Möhtəşəm nəsil), Sakit nəsil, Baby-boomer nəsli, X nəsli, Y nəsli (milenium), Z nəsli, Alfa nəsli, Beta nəsli [4, s.1-20]. Bu təsnifata daxil edilmiş və bizim ilk tədqiq edəcəyimiz İtirilmiş nəsil adlanır. Bu nəslin Azərbaycandakı nümayəndələri Qərblə müqayisədə daha fərqli, hətta tam əks keyfiyyətlərə malikdirlər. Azərbaycanda yeni dünya ideyasının banisi İtirlmiş nəslin nümayəndələridir və Möhtəşəm nəslin nümayəndələri bu ideyanın davamçılarıdır. Möhtəşəm nəslin nümayəndələrinə Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Bəxtiyar Vahabzadə, Mirzə İbrahimov kimi şəxsiyyətlər daxildir. Onların xarakterində özünü göstərən nəsil xüsusiyyətləri yaradıcılıqlarına təsirsiz ötüşmür. Möhtəşəm nəslin nümayəndələrinə Qərbdə olduğu kimi, böyük ideallar uğrunda yaşayan, tarixdə öz fədakarlıqları ilə iz qoyan görkəmli şəxslər daxildir. Həmçinin nəsillərin təsnifatında Sakit nəsil, Baby boomers nəsli, X nəsli, Y və ya milenium nəsli, Z, Alfa və Beta nəsillərinin adlarını çəkə bilərik.
**Açar sözlər:** Karl Mannheim, "Das problem der generation", nəsillər, William Strauss və Neil Howe, Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Bəxtiyar Vahabzadə, Mirzə İbrahimov, "Böyük dayaq" əsəri

**Məqalə tarixçəsi:** göndərilib – 14.11.2025; qəbul edilib – 21.11.2025

# The influence of the concept of generation on literature and reflection in literature

**Ayna Ahmedli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: aynaehmedli2003@gmail.com

**Abstract.** One of the current issues in the world of science is classifying people into different generations introduced by sociologists. In the view of Karl Mannheim, social and cultural changes can occur gradually without any need to major historical events, and people born in the current social-public conditions form a new generation with common characteristics under the influence of the public environment [5]. Based on Karl Mannheim's idea we can say that individual characteristics of masters working in various fields of art and the typical characteristics inherited to them by the generation they belong to influence the creativity of these masters. William Strauss and Neil Howe made the latest generation classification in accordance with

today's science. The classification presented by William Strauss and Neil Howe is as follows: The Lost Generation, The Greatest Generation, Silent Generation, Baby Boomer Generation, Generation X, Generation Y (Millennials), Generation Z, Generation Alpha, Generation Beta [4, s.1-20]. The first generation we will examine in this classification is the Lost Generation. The representatives of this generation in Azerbaijan have very different, even completely opposite, characteristics compared to the West. The founder of the new world idea in Azerbaijan is the representatives of the Lost Generation; and the representatives of the Greatest Generation are followers of this idea. Representatives of the Greatest Generation include personalities such as Jafar Jabbarli, Mikayil Mushfig, Bakhtiyar Vahabzade and Mirza Ibrahimov. The generational characteristics that manifest themselves in their characters do not fail to impress their creativity. Representatives of the Greatest Generation consists of prominent individuals that lived for great ideals and left their mark on history with their sacrifices, as in the West. We can mention the names of Silent Generation, Baby Boomer Generation, Generation X, Generation Y or Millennials, Generation Z, Generation Alpha and Generation Beta in the classification of generations.
**Keywords:** Karl Mannheim, "The problem of the generation", generations, William Strauss and Neil Howe, Mammad Amin Rasulzade, Huseyn Javid, Jafar Jabbarli, Bakhtiyar Vahabzade, Mirza Ibrahimov, the work "Big Support"

**Article history:** received – 14.11.2025; accepted – 21.11.2025

## Giriş / *Introduction*

Hazırda elm aləmində gündəmdə olan mövzulardan biri sosioloqların təqdim etdiyi insanların müxtəlif nəsillər üzrə təsnif edilməsidir. İnsanı müxtəlif aspektlərdən öyrənən ayrı-ayrı elmlər – istər sosiologiya, istər psixologiya, istərsə də pedaqogika insanı tədqiq edərkən onun fərdi xarakterik xüsusiyyətlərini nəzərə almaqla bərabər, həm də onun mənsub olduğu nəslin tipik xüsusiyyətlərini də diqqət mərkəzində saxlayır. Elm aləmində insanların müxtəlif nəsillər üzrə təsnif edilməsi ideyası macar əsilli alman alimi Karl Mannheimə məxsusdur. Onun fikrincə, insanlar doğulduğu zaman və mühitin təsiri ilə ortaq tarixi və sosial təcrübələrə sahib olurlar. Karl Mannheim özünün "Das problem der generation" adlı əsərində nəsillər nəzəriyyəsini irəli sürərək qeyd edir ki, sosial və mədəni dəyişikliklər böyük tarixi hadisələrə ehtiyac olmadan tədricən baş verə bilər, bununla da yaranmış mövcud sosial-ictimai şəraitdə dünyaya gələn insanlar bu mühitin təsiri ilə ortaq xüsusiyyətlərə malik yeni bir nəsli formalaşdırırlar [5]. Karl Mannheimin bu nəzəriyyəsinə əsaslanaraq deyə bilərik ki, incəsənətin müxtəlif sahələrində fəaliyyət göstərən sənətkarların fərdi xarakterik xüsusiyyətləri ilə bərabər, mənsub olduqları nəslin onlara qazandırdığı tipik xüsusiyyətlər də bu sənətkarların yaradıcılığına təsirsiz ötüşmür. Bizim fikrimizcə, bu təsir özünü ədəbiyyatda daha qabarıq əks etdirir. Belə ki, ədəbiyyat sənətkarın duyğu və düşüncələrini ifadə etməklə yanaşı, həm də sənətkarda yaradıcılıq hisslərinin oyanmasına səbəb olan həyat hadisələrini də özündə əks etdirir. Buna əsasən deyə bilərik ki, hər bir bədii əsər sənətkarın mənsub olduğu nəslin tipik xüsusiyyətlərini əks etdirməklə bərabər, həm də əsərdə əks olunan dövr, zaman və məkanın yetişdirdiyi obrazların nəsil xüsusiyyətlərini də özündə göstərir. Bu baxımdan, bədii əsərlərin yazıldığı dövrü və həmin dövrün nəsil xüsusiyyətlərini tədqiq etmək əvəzolunmaz nəticələr verəcəkdir. Bu, həm sənətkarın, həm də əsərdə əks olunmuş obrazların hisslərini, duyğu və düşüncələrini daha asan başa düşməyə imkan verəcəkdir.

## Əsas hissə / *Main Part*

İnsan şəxsiyyətinin formalaşmasına müxtəlif amillər təsir edir. Bu amilləri pedaqogika elmi belə təsnif edir: "Dünyaya yeni gəlmiş hər bir insan fərd kimi doğulur, lakin insan şəxsiyyəti

zamanla müxtəlif amillərin təsiri nəticəsində formalaşır. Bu amillər irsiyyət, mühit və tərbiyə olmaqla, üç əsas qrupa ayrılır" [3, s.41]. Müxtəlif dövrlərdə ayrı-ayrı alimlər bu amillərdən birini üstün tutaraq digər amillərin təsirinin daha az olduğunu, hətta onların şəxsiyyətin formalaşmasında rol oynamadığını belə söyləmişlər. Məsələn, ingilis maarifçilərindən olan Con Lokk özünün "Təcrübələr" əsərində insan şəxsiyyətinin formalaşmasında irsiyyətin heç bir rolu olmadığını söyləmiş və hətta dünyaya gələn hər körpənin ağ lövhə kimi tərtəmiz doğulduğunu, irsi şəkildə ötürülmüş, doğuşdan gələn fitri istedadın varlığını inkar etmişdir. Bununla belə, Con Lokk kimi bəzi alimlər irsiyyətin, bəziləri mühitin, bəziləri də tərbiyənin təsirini daha çox qabardırdı [3, s.46]. Lakin müasir elmin tələblərinə uyğun olaraq belə bir yanaşma qəbul edilməzdir. Bu üç amilin hər biri şəxiyyətin formalaşmasında eyni dərəcədə mühüm rola malikdir. Hətta qeyd etmək lazımdır ki, bu amillər sosioloqların təqdim etdiyi nəsillərin formalaşmasında da mühüm rol oynayır. Belə ki, eyni sosial-ictimai şəraitdə yaşayan insanlar mövcud mühitin təsiri ilə ortaq tipik xüsusiyyətlər qazanırlar. Sosioloqların tədqiqatlarına əsasən ortaq tipik keyfiyyətlər müəyyən zaman kəsiyində dünyaya gələn insanlarda özünü göstərir ki, bu da həmin zaman kəsiyində baş verən mühüm ictimai-siyasi hadisələrin təsiri ilə gerçəkləşir. Lakin hər bir insan aid olduğu nəslin tipik keyfiyyətləri ilə bərabər, fərdi xarakterik xüsusiyyətlərə də malik olur. Biz bunu onun irsi xüsusiyyətləri və ailədə qurulan tərbiyə mühitinin təsiri ilə əlaqələndiririk.

Nəsillərin ən son təqdim olunan və bugünkü elm üçün aktual olan təsnifini William Strauss və Neil Howe vermişdir. Bu təsnif 1991-ci ildə aparılmışdır və hələ də aktuallığını qorumağa davam edir. William Strauss və Neil Howe tərəfindən təqdim edilmiş təsnif belədir: İtirilmiş nəsil, Böyük nəsil (Möhtəşəm nəsil), Sakit nəsil, Baby-boomers nəsli, X nəsli, Y nəsli (milenium), Z nəsli, Alfa nəsli, Beta nəsli [4, s.1-20]. Bu nəsillərin hər birinin özünəməxsus xüsusiyyətləri vardır ki, biz bu xüsusiyyətləri nəzərdən keçirdikcə, nəsil nəzəriyyəsinin ədəbiyyata da təsirini müşahidə edəcəyik.

Bu təsnifata daxil edilmiş və bizim tədqiq edəcəyimiz ilk İtirilmiş nəsil adlanır. Bu nəsil nümayəndələrinin doğum dövrünün başlama və bitmə tarixi tam dəqiq təyin edilməmişdir, lakin bu nəslin nümayəndələrinə Birinci Dünya müharibəsini görən, müharibənin dəhşətlərinə birbaşa şahid olmuş insanlar daxil edilir. İngilis ədəbiyyatının bu dövrü də itirilmiş ədəbiyyat adlanır ki, itirilmiş ədəbiyyatın ən görkəmli nümayəndələrindən biri Nobel mükafatlı yazıçı Ernest Heminquey hesab olunur. Ernest Heminqueyin özü də İtirilmiş nəslin nümayəndəsi kimi, I Dünya müharibəsinin dəhşətlərinə birbaşa şahid olmuşdur ki, bu da təbii ki, onun əsərlərinə təsirsiz ötüşməyib. Onun "Əlvida Silah" əsəri I Dünya müharibəsində yazıçının şahid olduqlarını əks etdirməklə bərabər, həm də İtirilmiş nəslin nümayəndələrinin yaşadıqları o dəhşətləri birbaşa əks etdirmişdir. Həmçinin bu əsər bu nəslin nədən itirilmiş nəsil adlandırıldığının əsl sübutudur. Bu nəslin əksər nümayəndələri müharibədən sonra həyata uyğunlaşa bilməmiş intihara meyilli olan insanlardan ibarətdir. Məhz İtirilimiş nəsil ifadəsinin işlədilmə səbəblərindən biri də budur. Qərbdə bu nəslə "Birinci Dünya müharibəsi nəsli", "1914-cü il nəsli", Amerikadan Fransaya gələn nümayəndələrinə isə Avropada "Alov nəsli" adı verilmişdir [6]. Lakin bizim üçün əsas diqqət mərkəzində olan bu nəslin Azərbaycanda dünyaya gələn nümayəndələridir. Qeyd etdik ki, Avropada bu nəslin nümayəndələri I Dünya müharibəsindən sonra ağır travmalar nəticəsində əksərən tüfeyli bir həyat yaşamış, əksriyyəti isə intihar edərək öz həyatına son vermişdir. Lakin Azərbaycanda bu nəslin nümayəndələri ictimai-siyasi hadisələr qarşısında daha fərqli reaksiyalar vermişlər. Azərbaycanda itirilmiş nəslin nümayəndələrinə Məmməd Əmin Rəsulzadə, Əhməd Cavad, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə və s. kimi sənətkarlar daxildir. Azərbaycan mədəniyyətinin bu görkəmli nümayəndələri William Strauss və Neil Howe təsnifatında İtirilmiş nəslin nümayəndələri olsalar da, Avropada bu nəslə daxil edilən generasiyadan fərqli, hətta daha açıq desək, tam əks keyfiyyətlərə malikdirlər. Belə ki, Avropada itirilmiş nəslin nümayəndələri yaşadıqları dəhşətli hadisələrin təsirindən çıxa bilmir, hətta baş verənlər qarşısında dözüm göstərə bilməyib intihar edirdilərsə, Azərbaycanda I Dünya müharibəsindən sonra sanki yaşananlar bu

nəslin nümayəndələri üçün səbir kasalarının daşmasına səbəb olan son damcı oldu və onlar 1828-ci ildən 1918-ci ilə qədər davam edən çar Rusiyasının əsarətinə son qoydular. Təbii ki, bu, ədəbiyyatda da özünü göstərirdi. Əhməd Cavad, Əli bəy Hüseynzadə, Hüseyn Cavid kimi sənətkarlarımız türkçülüyü və azadlığı təbliğ edən əsərlər yazırdılar, artıq millətçilik ideologiyası formalaşmağa başlamışdı. Azərbaycanda İtirilmiş nəslin nümayəndəsi hesab olunan generasiya Qərb nəsillərindən fərqli olaraq, hadisələrə hiddətli reaksiya verir, müharibələr, işğallar, rus hakimiyyətinin avtoritariyasına qarşı üsyankar ruhlu əsərlər yazırdılar. Beləliklə, Avropada İtirilmiş nəslin nümayəndələri yaşadıqları acılara qarşı passiv-aqressiv reaksiya göstərdiyi halda, Azərbaycanda hiddətli və üsyankar reaksiya müşahidə olunurdu. Biz bunu müəlliflərin əsər yazarkən istifadə etdikləri mövzu seçimlərində də görürük. Məsələn, Məhəmməd Hadi yaradıcılığında azadlıq çağırşıları, haqsızlığa qarşı etirazlar daha emosional və pafoslu tonda ifadə edilir ki, bu onun üslub xüsusiyyətidir. Lakin bununla belə, daha romantik və fəlsəfi üslubda yazan Hüseyn Cavidin də mövzu və obraz seçimi hadisələrə qarşı reaksiyasının Məhəmməd Hadi və nəsil nümayəndələri ilə ortaq olduğunu göstərir. Buna nümunə olaraq Hüseyin Cavidin "Səyavuş" əsərini göstərə bilərik. Mövzu kimi qədim türk dastanı olan "Alp Ər Tonqa" dastanına müraciət edilməsi, türkçülük, düşmənə qarşı mübarizə, köklərə qayıdış çağırışları Hüseyn Cavidin baş verənlər qarşısındakı tutumunu göstərirdi. Həmçinin "Şeyx Sənan", "Peyğəmbər" kimi əsərlərlə Azərbaycan klassik ədəbiyyatının əsasını təşkil edən sufi-mistik düşüncələrin XX əsrin tələblərinə uyğun bir şəkildə təqdim edilməsi, əslində, köklərə qayıdış çağırışı idi. Sadəcə, Hüseyn Cavid və romantiklər deyil, həm də realizm ədəbi cərəyanının nümayəndələri də xalqı özünü dərk etməyə, öz soyuna, kökünə bağlılığa səsləyirdi. Bəs bunun əsas səbəbi nə idi?! Belə ki, Avropada İtirilmiş nəslin nümayəndələri yaşadıqları travmalardan sonra depresiv bir ruh halına bürünürdülər. Lakin türk mənşəli xalqlar ən qədim dövrlərdən etibarən üsyankar, boyunduruğa tabe olmayan xalqlardır. Hətta ən qədim türk əfsanələrindən tutmuş, XX əsrdə Mehmet Akif Ərsoyun yazdığı türk marşına, Əhməd Cavadın müəllifi olduğu Azərbaycan Respublikasının himninə qədər yazılmış bütün türk ədəbi-bədii nümunələrində bunu görə bilərik. Travmalara qarşı passiv-aqressiv reaksiya türk xalqları üçün xarakterik deyil. Coşqun ruh tərzi, ən çıxılmaz durumda həyata optimist baxış türklər üçün irsi xarakter daşıyan keyfiyyətlərdir. XX əsrdə Azərbaycanda, həmçinin dünyada yaşanan ictimai-siyasi hadisələr qarşısında yazıçılar azadlığa gedən yolda xalqın instiktiv xarakter daşıyan coşqun və həyəcanlı ruh halından yararlanmağa çalışırdılar. Buna görə də, bizim fikrimizcə, Azərbaycanda bu generasiyanı İtirlmiş nəsil adlandırmaq doğru olmazdı. Bu dövrdə, xüsusilə əsər yazarkən türk xalqlarının tarixinə müraciət edilməsi nəsil nümayəndələrinin coşqun ruh halından xəbər verirdi. Məmməd Əmin Rəsulzadə bu nəslin bir nümayəndəsi kimi sadəcə əsərlərdə deyil, həm də ictimai-siyasi fəaliyyətində də coşqun bir ruhla tarixin axarını dəyişəcək addımlar atmışdır.

William Strauss və Neil Howe-un təsnifatında növbəti nəsil Böyük nəsil adlanır. Bu nəsil tarixin inkişaf meyillərini dəyişdirdiyi üçün Möhtəşəm nəsil də adlandırılır. Möhtəşəm nəslin nümayəndələrinə 1901-1927-ci illər arasında dünyaya gələn insanlar daxildir. 1899-cu il doğumlu Cəfər Cabbarlını bu nəslin ilk nümayəndələrindən biri kimi qiymətləndirə bilərik. 1925-ci ildə dünyaya gəlmiş Bəxtiyar Vahabzadəni isə bu nəslin sonuncu nümyəndələrindən biri hesab edə bilərik. Qərb alimləri bu nəslin nümayəndələrinin II Dünya müharibəsinin iştrikaçıları olmasını əsas fərqləndirici cəhətlərdən biri kimi götürür. "Möhtəşəm nəsil" termini Tom Brokawın *"The Greatest Generation"* (1998) adlı kitabının çap olunması ilə məşhurlaşdı. Bu nəslin belə adlandırılmasının əsas səbəbi böyük ideallar uğruna yaşayıb, tarixin yaddaşında böyük fədakarlıqları ilə qalmaları olmuşdur. Brokaw öz əsərində yazırdı ki, bu kişilər və qadınlar şöhrət və ya tanınmaq üçün deyil, "doğru olanı etmək" üçün mübarizə aparırdılar [1]. Həmçinin onu da qeyd etmək lazımdır ki, dünya tarixində insanlıq üçün yeni bir inkişaf mərhələsi məhz bu nəslin nümayəndələrinin həyata keçirdikləri yeniliklərlə başladı. Azərbaycanda da Möhtəşəm nəslin nümayəndələri dünyanın yenidən qurulması uğrunda mübarizə aparır və həyata idealist bir mövqedən baxırdılar. Lakin

vurğulamaq lazımdır ki, Qərbdə yeni dünya və yeni bir həyat uğrunda mübarizə Möhtəşəm nəslin adı ilə bağlı olduğu halda, Azərbaycanda bu mübarizəyə İtirilmiş nəslin nümayəndələri başlamışdılar. Möhtəşəm nəslin nümayəndələri isə İtirilmiş nəslin açdığı cığırda onların idealları uğrunda mübarizəni davam etdirmişdir. Burada bir cəhət də diqqəti cəlb edir ki, İtirilmiş nəslin nümayəndələri başladıqları mübarizəni tamamlaya bilmir, çünki Azərbaycanda bu nəslin nümayəndələrinin çoxu repressiya qurbanı olmuşdur.

Möhtəşəm nəslin nümayəndələri olan sənətkarların əsərlərində bu nəslin ən tipik xarakterik xüsusiyyəti olan ideallar uğrunda yaşamaq və bu uğurda hər cür fədakarlığa hazır olmaq əsas təbliğ olunan keyfiyyətlərdir. Məsələn, Cəfər Cabbarlının "Elxan" əsərində biz bunun açıq nümunəsini görə bilərik. Əsərin mövzusunun xalq qəhrəmanı Babəkin həyatından götürülməsi, Elxanın azadlıq uğunda mübarizəsi, hətta bu yolda canını belə qurban etməsi bunun ən bariz nümunəsidir. Babəkin həyatı fonunda Cəfər Cabbarlı yeni dünya insanının ideal nümunəsini yaratmışdır. Cəfər Cabbarlının "Oqtay Eloğlu" əsərinin baş qəhrəmanı olan Oqtay müəllifin prototipi olmaqla bərabər, həm də Möhtəşəm nəslin nümayəndələri üçün tipik xarakter daşıyan xüsusiyyətləri özündə əks etdirirdi. Oqtay içdən-içə çürümüş və mənəviyyatını itirmiş bir cəmiyyətdə öz idealları uğrunda daimi mübarizədədir. Bu yolda nəinki öz həyatını, hətta ailəsinin rifahını belə qurban verir. Aşağıda Oqtayın dilindən verilən bu cümlə sanki Oqtayın deyil, Cəfər Cabbarlının ideallarını əks etdirirdi: "Xalq və "mən" – bu iki söz bir yerə sığışdırılmaz. Ya mən olmalıyam, mənim üçün xalq olmamalıdır. Ya o olmalıdır, mən olmamalıyam. Mən baxdım, ikinci yolu götürdüm. Və o gündən Oqtay bir şəxsiyyət olmaq üzrə yoxdur, O, el oğludur. O, böyük bir vahidin kiçik bir parçasıdır" [2, s.247]. Cəfər Cabbarlının, Oqtayın dilindən dediyi bu sözlər onun Möhtəşəm nəslin bir nümayəndəsi kimi, ülvi arzularla yaşadığını, xalq və xalqın maariflənməsi uğrunda hər şeyini fəda etməyə hazır olduğunu göstərir.

Möhtəşəm nəslin nümayəndələrinin ən əsas xarakterik cəhətlərindən biri onların həyata romantik baxışlarıdır. Bu nəslin nümayəndələri öz ideallarının gerçəkləşməsinin nə qədər imkansız olduğunu görsələr belə, sonunda ölüm olduğunu bilə-bilə bu uğurda mübarizədən əsla vaz keçmirlər. Azərbaycan ədəbiyyatında romantik arzularla yaşayan Mikayıl Müşfiqin həyat hekayəsi bunun bariz nümunəsidir. Ayna Sultanova, Mikayıl Müşfiq haqqında xatirələrində maraqlı bir faktı qeyd edir. Burada göstərilir ki, Mikayıl Müşfiq həbs olunmamışdan 2-3 ay öncə Ayna Sultanova Müşfiqi öz yanına çağırıb demişdi ki, artıq biz Hüseyn Cavidi itiririk, onu həbs eliyəcəklər, sən onun əleyhinə bir-iki yazı yazsan, səni repressiyadan qurtara bilərik. O zaman otaqda Mikayıl Müşfiq bu sözləri deyir: "Mənim sağ əlim Cavid əleyhinə bir söz yazsa, sol əlimlə onu baltalayaram" [9]. Bu sözlər möhtəşəm nəslin nümayəndəsi kimi böyük idealları olan, ustadı hesab etdiyi Hüseyn Cavid və digər qələm dostları üçün canından keçməyə hazır olan Mikayıl Müşfiqin xarakterini və daxili aləmini özündə əks etdirir. Bu sözlər həm də Mikayıl Müfiqin xarakterik xüsusiyyətlərində onun aid olduğu nəslin keyfiyyətlərinin də əks olunduğunu sübut edir.

Möhtəşəm nəslin nümayəndələri öz tipik xüsusiyyətləri etibarilə sufi-mistiklərlə eyniyyət təşkil edir. Belə ki, sufi-misitiklər öz yaradıcılığında maddi nemətlərin və dünyəvi həzzlərin keçici olduğunu və baqi olanın yalnız mənəvi – irrasional aləm olduğunu vurğulayırlar. Vəhdət yolçuluğuna çıxan aşiq fənaya gedən yolda baqi olana qovuşmaq üçün özündən keçməyi, ölmədən ölməyi bacarmalıdır. Arif olan yaradılanı sevməli, Yaradan üçün sevdiyindən keçə bilməlidir. Böyük ideallar uğrunda fədakarlıq etməyi bacarmalıdır. Göründüyü kimi, sufi-mistiklər də, Möhtəşəm nəslin nümayəndələri də böyük ideallar uğrunda yaşamış, bu yolda hər cür fədakarlığı etməyə hazır olmuşlar.

Bəxtiyar Vahabzadə Möhtəşəm nəslin sonuncu nümayəndələrindən hesab olunur. Bəxtiyar Vahabzadə sadəcə, Azərbaycanda deyil, eyni zamanda SSRİ-də yeni siyasi ab-havanın duyulduğu bir zamanda yaradıcılıqla məşğul olmuşdur. Onun əsərlərində Möhtəşəm nəslin nümayəndəsinə yaraşan bir şəkildə qurulan yeni dünyanın sədalarından xəbər verilirdi. Bəxtiyar Vahabzadə Sovet

hökümətinin sənətkarlar və incəsənət xadimlərini çevrələdiyi buxovlar içərisində tarixin yeni inkişaf meyillərindən bəhs edirdi. Onun "Gülüstan" poemasında biz bunu daha aydın duya bilərik. Bu əsərlə sanki ədəbiyyat aləmində dört bir tərəfi sarmış olan dumanlar dağılır. Bu əsər və bundan sonra yazılmış əsərlərdə artıq etiraz səsləri açıq duyulmağa başlayır. Qeyd etmək lazımdır ki, siyasi rejimlərin, yeni dünyanın qurulmasında Möhtəşəm nəslin nümayəndələrinin rolu böyükdür. Onlar mövcud şəraitlə heç vaxt barışmamış və hər zaman ictimai-siyasi xarakterli əsərlərində mövcud problemlərdən, cəmiyyətdə mövcud olan ziddiyyətlərdən, ədalətsizlikdən, haqsızlıqlardan açıq şəkildə bəhs etmiş və tənqid etmişlər.

William Strauss və Neil Howe-un təsnifatında növbəti nəsil Sakit nəsil adlanır. Bu nəsil özündən əvvəlki nəsildən mövcud şərait qarşısında öz sükunətini qoruması ilə seçilir. Belə ki, əgər Möhtəşəm nəslin nümayəndələri haqsızlıqlara qarşı daim etiraz səslərini ucaldırdısa, bu nəslin nümayəndələri hər zaman öz taleləri ilə barışır, tribunalardan, mitinqlərdən uzaq bir həyat yaşayırdılar. Xüsusilə də vurğulamaq lazımdır ki, II Dünya müharibəsindən sonra insan itkisinin çoxluğu, doğum səviyyəsinin həddindən artıq aşağı olması səbəbilə bu nəslin nümayəndələrinin sayı azdır. Bu nəslin nümayəndələri 1928-1945-ci illər arasında dünyaya gəlmişdir. Onlar II Dünya müharibəsinin iştirakçısı olmasa da, uşaqlıqları müharibə illərinə təsadüf edir. Bəlkə də buna görədir ki, ağır bir uşaqlıq keçirdikdən sonra daha sakit və rifah bir həyat yaşamaq arzusu ilə ziddiyyətli hadisələrdən, aktiv həyatdan uzaq yaşamağa çalışırdılar. Həmçinin bu nəslin Azərbaycanda dünyaya gələn nümayəndələri II Dünya müharibəsindən əlavə, uşaqlıqları Stalin rejiminin dəmir barmaqlıqları arasında keçdiyi üçün şəxsiyyət etibarilə daha səssiz xarakterə sahib olmuşlar. Biz Möhtəşəm nəslin nümayəndəsi olan 1911-ci il doğumlu Mirzə İbrahimovun "Böyük dayaq" romanında Sakit nəslin nümayəndələrinin həyat tərzinə şahid oluruq. Əsərdəki Maya, Qaraş kimi obrazlar demək olar ki, Sakit nəslin nümayəndələridir. Biz Rüstəm obrazını təhlil edərək belə qənaətə gəlirik ki, onu Möhtəşəm nəslin nümayəndəsi kimi qəbul edə bilərik. Hadisələrin inkişafına istiqamət vermək, rəhbər mövqedə dayanmaq, seçilmiş ideallar uğruna yaşamaq kimi keyfiyyətlər bizə imkan verir ki, bu obrazı Möhtəşəm nəslin nümayəndəsi hesab edək. Lakin nəzərə almaq lazımdır ki, hər bir insan öz fərdi xarakterik keyfiyyətləri ilə də aid olduğu ictimai qrup, həmçinin nəsildən fərqlənir. Rüstəm kişi xarakterində özünü göstərən eqoizm, "kimsə mənə xəyanət edə bilməz" düşüncəsi, şəxsiyyətə pərəstiş əlamətləri digər nəsil nümayəndələrindən onu ayıran xüsusiyyətlərdir. Həmçinin Maya və Qaraşın kənddə yeniliklərə imza atması ilə bərabər, mühafizəkarlığa kəskin etiraz göstərməmələri, hadisələrə daha anlayışlı və soyuqqanlı bir şəkildə reaksiya vermələri onların nəsil xüsusiyyətlərindən irəli gəlir. Bu nəslin nümayəndələri özündən əvvəlki nəsil ilə daim pərdəni qoruyur, onların fəaliyyətindəki qüsurları bəzən görməzdən gəlirdilər. Bunun səbəbini belə izah edə bilərik ki, Sakit nəsil Möhtəşəm nəslin dünya tarixindəki nəaliyyətləri qarşısında ehtiram göstərərək onların hər bir əməlində bir hikmət axtarırdılar və onlara olan etimadlarını qoruyurdular.

Rüstəm kişi bütün ziddiyyətli xüsusiyyətlərinə rəğmən, müsbət obraz kimi təqdim edilir. O, öz nəsil nümayəndələri ilə bərabər, II Dünya müharibəsinin iştirakçısı olmuş və xalqın gələcəyi və rifahı uğruna yaşamışdır. M.İbrahimov Möhtəşəm nəslin nümayəndəsi kimi mövcud rejimlə barışmır, açıq şəkildə olmasa da, Rüstəm obrazı vasitəsilə Stalin rejiminin ikiüzlülüyünü tənqid edir. Həmçinin əsər boyu bu obraz sanki katarsisdən keçərək müəllifin ideyalarını özündə əks etdirir. Bu baxımdan, bu obraz ikili xarakter daşıyır. Rüstəm obrazı həm müəllifin tənqid etdiyi ictimai-siyasi şəraitin təmsilçisidir, həm də süjet xətti inkişaf etdikcə, mənəvi bir təmizlənmə keçirərək müəllifin təqdim etmək istədiyi ideal insana çevrilir. Əsərin əsas mövzusu yenilik və mühafizəkarlığın qarşıdurmasıdır ki, Möhtəşəm nəslin bir nümayəndəsi kimi müəllif bu fonda yeni dünyanın ayaq səslərinin gəldiyindən, dəyişimin, yenilənmənin qapıda olduğundan xəbər verir.

Nəsillərin təsnifatında növbəti nəsil Baby boomers nəslidir ki, bu ifadə ingilis dilindən tərcümədə körpə partlayışı deməkdir. Belə ki, II Dünya müharibəsindən sonra demoqrafik böhran

baş verir, bu da insanların çoxuşaqlı ailələrə üstünlük verməsi ilə nəticələnir. Demək olar ki, II Dünya müharibəsindən sonra 10 uşaqlı ailələrin sayı getdikcə artırdı. Bu nəslin nümayəndələri 1946-1964-cü illər arasında dünyaya gələn insanlar hesab olunur. Baby boomerslar, əsasən, Sakit nəsil və ya Möhtəşəm nəslin övladlarıdır. Onlar tarixdə təhsil reformları ilə qalırlar. Azərbaycanda bu nəslin nümayəndələrinə Ramiz Rövşən, Nəriman Həsənzadə kimi sənətkarlar daxildir.

Nəsillərin təsnifatında bundan sonra X nəsli, Y və ya milenium nəsli, Z nəsli gəlir. Xüsusilə qeyd etmək lazımdır ki, Müstəqil Azərbaycanın qurulmasında Boomers və X nəslinin nümayəndələrinin mühüm rolu vardır.

Y nəsli və ya milenyanlar texnologiyanın inkişafı dövründə dünyaya gəldikləri üçün bu tip texnoloji yeniliklərə aşinadırlar. Lakin onlardan fərqli olaraq, XXI əsrin ilk nəsli – Z nəsli birbaşa internet əsrində dünyaya gəliblər. Məhz buna görə də, bu nəslin fərdi xarakterik xüsusiyyətləri özündən əvvəlki nəsillərdən xeyli fərqlənir. Z nəsli XXI əsrin ilk insanları olduğuna görə, onlar öz uşaqlıqlarını modern çağın problemlərinin içərisində keçirmişdir. Bu səbəbdəndir ki, psixoloqlar müşahidə edir ki, Z nəsli gələcək qayğıları, bu qayğıların səbəb olduğu psixoloji problemlər, stres pozuqluğu kimi narahatlıqlardan əziyyət çəkir. Bu nəsil həyata daha analitik və realistik bir baxış bucağından baxır ki, onlar üçün həyat ağ və qaradan ibarətdir desək, yalan olmaz. Z nəsli üçün özünü isbat etmək, öz ayaqları üzərində dura bilmək, cəmiyyətdə müəyyən mövqeyə sahib olmaq kimi cəhətlər həyatın əsas məqsədidir. Professional kariyera onlar üçün mühüm əhəmiyyət kəsb edir. X nəsli və ya Y nəsli üçün ailə hər zaman iş həyatından öndə gəlirdisə və iş həyatında uğur qazanmağın əsas məqsədi kimi ailənin rifahı ön plana qoyulurdusa, Z nəsli iş həyatında uğur qazanmağı həyatının məqsədinə çevirir. Bu nəsil stresli, səbirsiz və tezcanlı olduğu üçün, oxumaq və mütaliə etmək onlar üçün çətindir. Həmçinin Z nəslinin sosial media nəsli olmasından irəli gəlir ki, bu nəslin bir digər adı dijital oxuculardır [7]. Buradan belə bir qənaətə gəlirik ki, bədii qiraət bu nəsil üçün daha mühüm bir əhəmiyyət ehtiva edir. Bədii ədəbiyyatdan uzaqlıq, incəsənətə biganəlik stress pozuqluğunun, həyat qayğılarının insanı məhv etməsinə gətirir. Əsrlərdir ki, insanlar ədəbiyyatdan, incəsənətdən həyatın qayğılarından, stresindən sığındıqları bir liman kimi istifadə edirlər. Əvvəlki nəsillərlə hazırkı Z nəslini müqayisə etdikdə də biz bunun doğru bir addım olduğunu və həqiqətən də ədəbiyyatın, incəsənətin psixoloji problemlərin qarşısını aldığının şahidi oluruq.

## Nəticə / *Conclusion*

Karl Mannheimin nəsillər nəzəriyyəsinə əsaslanaraq, deyə bilərik ki, incəsənətin müxtəlif sahələrində fəaliyyət göstərən sənətkarların fərdi xarakterik xüsusiyyətləri ilə bərabər, mənsub olduqları nəslin onlara qazandırdığı tipik xüsusiyyətlər də bu sənətkarların yaradıcılığına təsirsiz ötüşmür. Bu təsir özünü ədəbiyyatda daha qabarıq əks etdirir. Belə ki, ədəbiyyat sənətkarın duyğu və düşüncələrini ifadə etməklə bərabər, həm də sənətkarda yaradıcılıq hisslərinin oyanmasına səbəb olan həyat hadisələrini özündə əks etdirir.

William Strauss və Neil Howe-un təsnifatında təqdim edilmiş nəsillərdən biri İtirilmiş nəsildir. Bu nəslin Azərbaycanda dünyaya gəlmiş nümayəndələri Qərb alimləri tərəfindən bu nəslə aid edilən keyfiyyətlərə əks xüsusiyyətlərə malikdirlər. Azərbaycanda yeni dünya ideyasının banisi İtirilmiş nəslin nümayəndələridir və Möhtəşəm nəsil bu ideyanın davamçısı hesab olunur. Qeyd etmək lazımdır ki, İtirilmiş nəslin nümayəndələri öz idealları uğrunda başladıqları mübarizəni davam etdirə bilmir. Çünki bu nəslin nümayəndələrinin çoxu repressiya qurbanı olmuşdur. İtirilmiş nəslin nümayəndələri olan sənətkarlar öz əsərlərində türkçülük, köklərə qayıdış, özünüdərk, haqsızlıq qarşısında mübarizə ideyalarını təbliğ edirdilər. Möhtəşəm nəslin nümayəndələrinə Qərbdə olduğu kimi, böyük ideallar uğrunda yaşayan, tarixdə öz fədakarlıqları ilə iz qoyan görkəmli şəxslər daxildir. Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Bəxtiyar Vahabzadə, Mirzə İbrahimov kimi şəxsiyyətlər buna nümunə ola bilər. Bu dahi şəxsiyyətlərin mənsub olduğu nəslin onlara

qazandırdığı keyfiyyətlər və tipik xüsusiyyətlər onların həm yaradıcılığına, həm də ictimai fəaliyyətinə öz təsirini göstərmişdir. Bütün bu deyilənlərə əsasən, deyə bilərik ki, hər bir sənətakarın mənsub olduğu nəslin tipik xüsusiyyətləri onların xarakterində öz əksini taparaq yaradıcılıqlarına, xüsusilə bədii yaradıcılıqlarına öz təsirini göstərmişdir.

**Ədəbiyyat / *References***


1. Brokaw Tom. The Greatest Generation. – New York: Random House, 1998.
2. Cabbarlı Cəfər. Əsərləri, üç cilddə, II cild. – Bakı: Şərq-Qərb, 2005.
3. Hüseynzadə Rüfət. Pedaqogika. – Bakı: Mütərcim, 2021.
4. Strauss William və Howe Neil. Generations: Amerika Gələcəyinin Tarixi, 1584-2069. – New York: William Morrow & Company, 1991.

***İnternet resursları***

5. https://en.wikipedia.org/wiki/Theory_of_generations
6. https://tr.wikipedia.org/wiki/Kay%C4%B1p_Nesil
7. https://tr.wikipedia.org/wiki/Z_Ku%C5%9Fa%C4%9F%C4%B1
8. https://docslib.org/doc/11431045/the-sociological-problem-of-generations-karl-mannheim?utm_source=chatgpt.com
9. https://www.adalet.az/az/posts/detail/ayna-sultanovani-agladan-mushfiq-98553?utm_source=chatgpt.com


## Влияние на литературу и отображение понятия поколение


**Айна Ахмедли**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: aynaehmedli2003@gmail.com



**Резюме.** Одной из актуальных тем в мировой науке является классификация людей по разным поколениям, представленная социологами. По мнению Карла Мангейма, социальные и культурные изменения могут происходить постепенно, без необходимости крупных исторических событий. Таким образом, люди, рожденные в существующих социально-социальных условиях, под влиянием этой среды формируют новое поколение с общими характеристиками [5]. Основываясь на этой идее Карла Мангейма, можно сказать, что наряду с индивидуальными особенностями художников, работающих в различных областях искусства, типичные характеристики, которые дает им поколение, к которому они принадлежат, не остаются без влияния на творчество этих художников. Самая последняя из представленных и актуальная для сегодняшней науки классификация поколений была дана Уильямом Штраусом и Нилом Хоу. Классификация, представленная Уильямом Штраусом и Нилом Хоу, выглядит следующим образом: Lost Generation (Потерянное поколение), Great Generation (Великолепное поколение), Quiet Generation (Тихое поколение), Baby-boomer Generation (Поколение бэби-бумеров), Generation X (Поколение X), Generation Y (Поколение миллениалов), Generation Z (Поколение Z), Alpha Generation (Альфа-Поколение), Beta Generation (Бета-Поколение) [2, с.1-20]. Первое поколение, включенное в эту классификацию и которое изучено автором, называется Lost Generation. Представители этого поколения в Азербайджане обладают иными, даже совершенно противоположными качествами по сравнению с Западом. В Азербайджане основоположниками идеи нового мира являются представители Lost Generation, а представители Великолепного поколения являются продолжателями этой идеи. К представителям Великолепного поколения относятся такие личности, как Джафар Джаббарлы, Микаил Мушфиг, Бахтияр Вахабзаде, Мирза Ибрагимов.

Характеристики поколения, проявляющиеся в их характере, не остаются незамеченными и в их творчестве. Представители «Великолепного поколения», как и на Западе, включают в себя выдающихся личностей, живших ради великих идеалов и оставивших след в истории своей жертвенностью. Также в классификации поколений можно отметить «Тихое поколение», «Поколение бэби-бумеров», «Поколение X», «Поколение Y» или «Поколение миллениалов», «Поколение Z», «Альфа» и «Бета».
**Ключевые слова:** Карл Мангейм, “Das Problem der Generation” («К проблеме поколений»), поколения, Уильям Штраус и Нил Хоу, Мамед-Эмин Расулзаде, Гусейн Джавид, Джафар Джаббарлы, Бахтияр Вахабзаде, Мирза Ибрагимов, произведение «Великая опора»